http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 15 (1633) 16 sentyabr 2016 - cı il Qiymıəti 50 qəpik



## Ə.Ə.Namazovanın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

**Azərbaycanda tibb elminin inkişafında xidmətlərinə və tibb kadrlarının yetişdirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ədilə Əvəz qızı Namazova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.**

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 7 sentyabr 2016-cı il.**

## Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Ədilə Namazovaya

**Hörmətli Ədilə xanım!**

Sizi – Azərbaycan tibb elminin və təhsilinin görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, səadət və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

60 ildən artıq bir dövr ərzində Siz elm, təbabət və təhsili üzvi şəkildə birləşdirərək həm alim və müəllim kimi, həm də uşaqların sağlamlığını qoruyan bir həkim kimi böyük uğurlar əldə etmisiniz. Siz öz nəcib fəaliyyətinizlə uzun illər ərzində Azərbaycanda uşaq təbabətinin inkişafında əvəzsiz rol oynamısınız. Apardığınız çoxşaxəli tədqiqatlarla Siz ölkəmizdə və beynəlxalq aləmdə böyük hörmət qazanmısınız.

Azərbaycan Tibb Universitetinin tibb və səhiyyə sahəsində nüfuzlu mərkəz kimi formalaşmasında, sözsüz ki, Sizin kimi alimlərin böyük əməyi vardır. Neçə nəsil pediatr həkimlərin yetişdirilməsində bilavasitə iştirak edərək Siz daim yüksək ixtisaslı kadrların hazırlanması prosesinə layiqli töhfələr vermisiniz. Azərbaycanda uşaqların sağlamlığının keşiyində duran minlərlə insan böyük qürur hissi ilə vaxtilə tələbəniz olduğunu xatırlayır. Sizin vətəndaş mövqeyiniz və aktiv ictimai fəaliyyətiniz də təqdirəlayiqdir.

Bu gün Siz, ömrünüzün müdriklik çağında yenə də zəngin təcrübənizi və yüksək elmi potensialınızı səhiyyəmizin inkişafı naminə səfərbər edirsiniz. Ümidvaram ki, bundan sonra da insanların sağlamlığının qorunması üçün öz qüvvə və bacarığınızı əsirgəməyəcəksiniz.

Ən xoş arzularla

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
**Bakı şəhəri, 7 sentyabr 2016-cı il.**

## Bu sayımızda

«BİLİK GÜNÜ» NƏ HƏSR EDİLMİŞ GENİŞ TOPLANTI KEÇİRİLDİ 2



Rektor ATU-nun əməkdaşlarını Qurban bayramı münasibətilə təbrik edib 3

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına yeni direktor təyin edilib 3



İraq diplomatı Azərbaycan Tibb Universitetində 3

Yeni tədris ilinə həsr olunmuş iclasda 4



GİGİYENA-PROFİLAKTİK TƏBABƏTİN ƏSASIDIR 6

◆ **15 sentyabr Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı - “Bilik Günü”dür. Təhsilin, elmin, biliyin tərəqqi üçün açar, inkişafın hərəkətverici qüvvəsi hesab olunduğu ölkəmizdə yeni dərs ilinin ilk günü - «Bilik günü» həmişə ümumxalq bayramı kimi qeyd olunur.**

# «BİLİK GÜNÜ»NƏ HƏSR EDİLMİŞ TOPLANTI KEÇİRİLDİ



**Ölkə başçısı İlham Əliyev cənablarının “Azərbaycan Respublikasında “Bilik Günü” nün təsis edilməsi və ümumtəhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında” 2004- cü il tarixli Fərmanına əsasən, hər il sentyabrın 15-i “Bilik Günü” elan edilmişdir**





Son illər Azərbaycan təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, idarə olunmasının demokratikləşdirilməsində uğurlu nəticələr əldə edilib.

Respublikamızın bütün ümumtəhsil, orta ixtisas və ali məktəblərində yüksək səviyyədə qeyd edildiyi kimi, ölkəmizdə ən nüfuzlu ali təhsil müəssisələrindən biri sayılan Azərbaycan Tibb Universitetində də «Bilik günü»nə xüsusi önəm verilir.

Elə bu münasibətlə universitetimizdə geniş toplantı keçirildi.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Tibb Universitetin rektoru, professor Gəray Gəraybəyli doğma kollektivi və bu il tələbə adını qazananları, həmçinin onların valideynlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edərək bu əlamətdar günün yaranma tarixindən söhbət açdı.

Universitet rəhbəri çıxışında Azərbaycanın dövlət müstəqilliyini qazanmasından keçən illər ərzində respublikamızın həyatının bütün sahələrində, xüsusən də təhsil sahəsində böyük uğurların əldə edildiyini önə çəkildi. Sözünə davam edən rektor elmə və təhsilə göstərilən dövlət qayğısından bəhs etdi, universitetin 86 il ərzində keçdiyi şərəfli inkişaf yoluna da nəzər saldı. Bildirdi ki, bu elm müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması ümummilli lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. O, ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, ulu öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğuladı.

Xalqımızın cənab İlham Əliyevin daxili və xarici siyasətini bəyəndiyini və müdafiə etdiyini söyləyən rektor bildirdi ki, elmin, təhsilin inkişafı, dövlətimizin demokratik dəyərlərə arxalanması, beynəlxalq nüfuzunun artması məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir.

Universitetin nəzdində onkoloji, stomatoloji, tədris-terapevtik və tədris-cərrahiyyə klinikalarının fəaliyyət göstərdiyini və bu klinikaların hər birinin müasir avadanlıqlarla təchiz edildiyini diqqətə çatdıran rektor bütün bunları Azərbaycan dövlətinin səhiyyə sahəsinə yüksək diqqəti kimi qiymətləndirdi. 2016/2017-cı tədris ilində ATU-ya 1002 nəfərin qəbul olunduğunu deyən G.Gəraybəyli qeyd etdi ki, 416 abituriyent qəbul imtahanlarında 600-dən, 444 nəfər 500-dən, 78 nəfər 400-dən, 13 nəfər isə 300-dən yuxarı bal toplayıb. Bundan başqa 700 bal toplayan 3 nəfər bizim universitetdə təhsil alacaqdır. Rektor tələbələrə bu uğurlarının davamlı olmasını dilədi: “Sizin üçün bu gündən həyatınızın tam yeni mərhələsi, tələbəlik illəri başlayır. Hər bir insanın həyatında tələbəlik illəri xüsusi əhəmiyyətə malikdir. Yaddaşda dərin iz qoyan illərdir. Sizin növbəti 6 iliniz Azərbaycan Tibb Universiteti ilə bağlı olacaq. Sizin hər birinizin üzərinə böyük məsuliyyət düşür. Tələbəlik illəri nə dərəcədə maraqlı, sevilən, emosional olsa da, bir o qədər məsuliyyətli, vacib illərdir”.

İnsan anatomiyası kafedrasının müdiri, ə.e.x., professor Vaqif Şadlinski “Bilik günü” münasibəti ilə müəllim və tələbələri təbrik etdi. Azərbaycan səhiyyəsinin ölkənin inkişaf tempinə uyğun olaraq inkişaf etdiyini bildirdi. Ölkənin müxtəlif bölgələrində müasir tipli tibb müəssisələrinin inşa edilərək xalqın istifadəsinə verildiyini və həmin müəssisələrin müasir avadanlıqlarla təchiz olunduğunu qeyd etdi. Professor V.Şadlinski Azərbaycan Tibb Universitetinin ölkəmizdə və xaricdə böyük nüfuza malik olduğunu, bu təhsil müəssisəsinin xalqımıza yalnız bacaraqlı tibbi kadrlar deyil, həm də görkəmli şəxsiyyətlər bəxş etdiyini dilə gətirdi. O, qeyd etdi ki, indi universitetimizin məzunlarının sorağı dünyanın inkişaf etmiş bir çox ölkələrindən gəlir. Və bu da şübhəsiz ki, bizim hamımızın məzunu olduğumuz doğma universitetimizə həmişə başucalığı gətirib.

II uşaq xəstəlikləri kafedrasının müdiri, ə.e.x., professor Amaliya Əyyubova isə çıxışında dövlətimizin iqtisadi inkişafından, tibb sahəsində kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlərdən söhbət açdı. Tibb sahəsinin, səhiyyə sisteminin ölkədə irəlidə gedən bir sahəyə çevrildiyini vurğuladı.

O, diqqətə çatdırdı ki, Azərbaycan hökumətinin qarşısında duran başlıca məqsəd təhsil və səhiyyə sahələrində yüksək keyfiyyətə nail olmaqdır. Belə ki, ölkəmizdə ildən-ilə müəllimlərin və həkimlərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

Çıxışlarında tələbələrin yüksək təhsil almaları üçün Azərbaycan Tibb Universitetində hər cür şəraitin yaradıldığını bildirən natiqlər tələbə sıralarına yenicə qəbul olunanlara bu peşənin məsuliyyətini dərk edərək əzmlə çalışmağı tövsiyə etdilər. Bu gün ATU-nun böyük maddi-texniki bazaya malik olduğunu vurğulayan natiqlər gənclərə tövsiyə etdilər ki, əsil vətəndaş olmaq üçün təkcə savad azdır, həm də milli-mədəni sərvətlərimizi qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.

Tədbirdə 700 balla ATU-nun tələbəsi adını qazanan Prezident təqaüdçüsü Orxan Zülfüqarov çıxışında təhsil aldığı Şəmkir rayonunun Çinarlı qəsəbəsinin 2 saylı orta məktəbinin müəllimlərinə təşəkkürünü çatdırdı, I kurs tələbələri adından gələcək müəllimlərinə daim bu ali təhsil ocağının adını ucaldacağına və müəllimlərinin etimadını doğruldacağına söz verdi.

Tədbiri yekunlaşdıran professor Gəray Gəraybəyli yeni dərs ilinin başlaması münasibətilə universitet əməkdaşlarını və tələbləri bir daha təbrik edərək söylədi ki, bu il həm də bizim üçün ona görə əlamətdardır ki, Prezident təqaüdçüləri arasında reytinq cədvəli üzrə həmişə olduğu kimi yenə də birinciyik. Bununla da Prezident təqaüdçülərinin 1/4-i bizim universitetin payına düşür. ATU-nun yeni inkişaf yoluna qədəm qoyduğunu vurğulayan rektor kollektivin bundan sonra da yeni uğurlara imza atacağını və yüksək ixtisaslı peşəkar mütəxəssislər hazırlığına diqqəti artıracağını bir daha ifadə etdi.

Sonda universitetin rəhbəri G.Gəraybəyli bu il 700 balla ATU-ya qəbul olunan Səbinə İsmayılova, Ağalətif Lətifov və Orxan Zülfüqarova qiymət kitabçası və tələbə biletini təqdim etdi.

Toplantıdan sonra professor Gəray Gəraybəyli böyük akt zalının 3-cü mərtəbəsində yeni təmirdən çıxmış patoloji anatomiya kafedrasının və həmin ərazidə yerləşən patoloji laboratoriyanın açılışını etdi. Burada görülən işlər haqqında rektora məlumat verən kafedranın müdiri, professor Ədalət Həsənov bildirdi ki, kafedra yarandığı gündən indiyədək belə müasir, əlverişli bir şəraitə malik olmayıb. Kafedranın auditoriyalarına baxış keçirən rektor əməkdaşlarla görüşərək yeni tədris ilində və yeni ünvanda onlara uğurlar arzuladı.

**Mənsur ƏLƏKBƏRLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Rektor ATU-nun əməkdaşlarını Qurban bayramı münasibətilə təbrik edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli müqəddəs Qurban bayramı münasibətilə ali məktəbin professor-müəllim heyətini, həmçinin tələbələri təbrik edib.**





Bayrama həsr edilmiş görüş zamanı müqəddəs Qurban bayramı münasibətilə hər kəsi təbrik edən rektor qeyd edib ki, Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və humanizmə çağırır. Həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalan xalqımız tərəfindən bu bayram xüsusilə qeyd edilir.

Rektor Gəray Gəraybəyli Azərbaycan Tibb Universitetinin əməkdaşları və tələbələrini, onların ailə üzvlərini təbrik edərək, onlara cansağlığı, xoşbəxtlik və ruzi-bərəkət arzulayıb.

# İraq diplomatı Azərbaycan Tibb Universitetində

**İraqın Azərbaycandakı müvəqqəti işlər vəkili Fadil Əl-Şuveyli Azərbaycan Tibb Universitetində (ATU) qonaq olub.**



Universitetin rəhbər nümayəndələri ilə görüş zamanı Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ATU-da təhsil alan əcnəbi tələbələrlə bağlı qonağa ətraflı məlumat verib. Rektor ATU-da təhsil alan xarici ölkə gəncləri arasında İraqdan olan tələbələrin xüsusi fərqləndiyini də bildirib.

Qeyd olunub ki, İraq hökumətinin avqustun 21-də verdiyi qərara əsasən, artıq Azərbaycan Tibb Universitetinin diplomları həmin ölkədə tamhüquqlu təhsil sənədi kimi qəbul ediləcək. Fadil Əl-Şuveyli bu qərarı dəstəklədiyini, iraqlı tələbələrin Azərbaycanda yüksək təhsil aldıqlarından, lazımi biliklərə yiyələndiklərindən məmnunluğunu bildirib. İraq rəsmisi ATU-da təhsil alan iraqlı tələbələrə qarşı çox yaxşı münasibətin olduğunu da vurğulayıb.

Görüş zamanı Azərbaycan və İraq arasında olan dostluq münasibətlərinin təhsil müstəvisində də davam etdirildiyi, Azərbaycan Tibb Universiteti ilə mövcud əməkdaşlığın buna bariz nümunə olduğu vurğulanıb. Gələcəkdə bu istiqamətdə görülən işlərin davam etdiriləcəyi qeyd olunub.

# Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına yeni direktor təyin edilib

**Sentyabrın 1-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında tədbir keçirilib. Tədbirdə universitetin rektoru professor Gəray Gəraybəyli klinikanın yeni direktorunu təqdim edib.**



Tədbiri açıq elan edən rektor klinikanın direktoru, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramova Səhiyyə Nazirliyinin rəhbərliyi və öz adından gördüyü işlərə görə təşəkkürünü bildirdikdən sonra yeni direktoru təqdim edib. O, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 31 avqust 2016-cı il tarixli Kollegiyasının qərarı ilə II Cərrahi xəstəliklər kafedrasının professoru, tibb elmləri doktoru Surxay İsmayıl oğlu Hadıyevin Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının direktoru vəzifəsinə təyin edildiyini bildirib. Bu məqsədlə ona gələcək işində böyük uğurlar arzulayan rektor qeyd edib ki, ATU-nun Tədris Cərrahiyyə Klinikası universitetin ən parlaq, ən möhtəşəm hissəsidir. Qarşımıza qoyduğumuz ən vacib məqsədlərdən biri budur ki, klinika tam yüksək səviyyədə çalışsın. Yeni rəhbərliyin də məqsədi yaxşı olan işi daha da yaxşılaşdırmaq, müəyyən problemləri aradan qaldırmaqdan ibarətdir.



Bundan sonra rektor sözü klinikanın yeni direktoru Surxay Hadıyevə verib.

Yeni təyin olunan direktor ona göstərilən etimadı doğruldacağını deyib: "Bu gün həyatımdakı mühüm anlardan biridir. Göstərdikləri etimada görə rektora və cənab nazir Oqtay Şirəliyevə öz minnətdarlığımı bildirirəm və söz verirəm ki, bilik və bacarığımı bu etimadı doğrultmaq üçün sərf edəcəyəm. Azərbaycanın hər yerindən buraya axın var. Ümid edirəm ki, klinikanı daha da yüksək yerlərə çatdıracağıq".

Sonda klinika heyəti də yeni direktoru təbrik edib və ona işlərində müvəffəqiyyətlər arzulayıb.

**ATU-nun mətbuat xidməti**

# 2016/2017-ci tədris ilində ATU-ya daxil olmuş Prezident təqaüdçüləri

**I Müalicə-profilaktika fakültəsi üzrə**

**Abdurahmanova Nigar Şaiq qızı**
**Ağayeva Leyla Namiq qızı**
**Həsrətli Vüsal Əli oğlu**
**İsmayılov Mirxəzər Ağazər oğlu**
**İsmayılzadə Gülşən Rafiq qızı**
**Quluzadə Elgün Elşən oğlu**
**Lətifov Ağalətif İsaq oğlu**
**Mehdiyeva Könül Ceyhun qızı**
**Məmmədli Gilə Mübariz qızı**
**Məmmədov Tural Faiq oğlu**
**Zülfüqarov Orxan Əzim oğlu**

**II Müalicə-profilaktika fakültəsi üzrə**

**Abdullayeva Fidan Hikmət qızı**
**Aslan Emil Aslan oğlu**
**Bayramova Nisə Ələndər qızı**
**Cəbrayılova Aytac Arif qızı**
**Eyyubov Qəzənfər Vüqar oğlu**
**Əlizadə Fatimə Fəzail qızı**
**Əsgərova Zeynəb Mübariz qızı**
**Gəncəliyeva Leyla Gəncəli qızı**
**İsmayılova Səbinə Emil qızı**
**Mirzəyeva Bibixanım İlqar qızı**
**Nəsirli Çinarə Tofiq qızı**
**Rzayev Murad Elbrus oğlu**
**Şükürova Nigar Akif qızı**

# Yeni tədris ilinə həsr olunmuş iclasda

**Sentyabr ayının 5-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında yeni tədris ilinə həsr olunmuş iclas keçirilib.**



İclası giriş sözü ilə açan Klinikanın direktoru, dosent Könül Xəlilova yeni tədris ilinin başlanması münasibətilə professor-müəllim heyətini təbrik edib, onlara işlərində müvəffəqiyyətlər arzulayıb.

K.Xəlilova klinikaya direktor təyin edilməsinə və eyni zamanda ona göstərdikləri etimada görə səhiyyə naziri Oqtay Şirəliyevə və Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə minnətdarlığını bildirib.

K.Xəlilova klinikaya yeni təyin olunmuş baş həkim, nefroloq Elnur Fərəcovu da iclas iştirakçılarına təqdim edib.

E.Fərəcov çıxışında iclas iştirakçılarını salamlayaraq, onlara yeni tədris ilində uğurlar arzulayıb.

K.Xəlilova iclasın davamında bu yaxınlarda 70 illik yubileyini qeyd edən klinikanın professoru Mehman Ağayevi təbrik edib, ona can sağlığı arzulayıb.

Daha sonra K.Xəlilova klinikaya direktor vəzifəsinə təyinatından sonra görülmüş işləri və eyni zamanda qarşıda duran planları professor-müəllim heyətinin diqqətinə çatdıraraq bildirib ki, klinikada xəstələrin rahatlığını təmin etmək və onlara göstərilən xidmətin keyfiyyətini yüksəltmək üçün yeni işlər görülür. Çünki əhaliyə yüksək xidmət bizim əsas devizimiz olmalıdır: "Burada yüksək səviyyəli tibbi təhsilə nail olmaq, həkim-mütəxəssislər hazırlamaq professor-müəllim heyətinin üzərinə düşən əsas vəzifələrdən biridir.

Biz həm də klinika əməkdaşlarını düşünərək, onlara tərəfimizdən edilən endirimləri artırmaqla bağlı yeni planlar üzərində işləyirik".

K.Xəlilova, həmçinin, klinikada fəaliyyət göstərən qəbul şöbəsinin işində də yeniliklər olacağı barədə iclas iştirakçılarını məlumatlandırıb.

Klinikada nizam-intizam qaydalarına əməl edilməsinə diqqət çəkən direktor, hər kəsdən buna riayət etmələrini xahiş edib: "Çünki bura təkcə tibb ocağı kimi deyil, eyni zamanda təlim-tədris mərkəzi olaraq hər kəsin diqqət mərkəzindədir".

Daha sonra çıxış edən pediatr-allerqoloq, professor Amaliya Əyyubova, pediatrik profilli xəstələrin klinikaya axınını daha da artırmaq üçün həkimlərin ciddi səylə çalışdıqlarını vurğulayıb.

İclas cari məsələlərin müzakirəsi ilə işini yekunlaşdırıb.

**Pərvin ARZUQIZI**

# "Sağlam ürək həftəsi" çərçivəsində Bakıda bir sıra tədbirlər təşkil olunacaq

**Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti (AÜDCC) Dünya Ürək Günü ilə əlaqədar sentyabrın son həftəsini "Sağlam ürək həftəsi" elan edir.**




Həftə çərçivəsində sentyabrın 28-dən 30-dək paytaxtda yerləşən alış-veriş mərkəzlərində "Həyatına enerji qat!" şüarı altında aksiyalar təşkil olunacaq, ictimaiyyət nümayəndələri ilkin tibbi müayinədən keçiriləcək, əhalinin ürək sağlamlığı üçün vacib olan məlumatlardan hazırlanmış maarifləndirici məlumat kitabçaları paylanılacaq. Oktyabrın 1-də isə Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti Səhiyyə Nazirliyi ilə birgə "Park İnn" hotelində yerli və əcnəbi kardioloq və kardiocərrahların iştirakı ilə beynəlxalq elmi konfrans keçirəcək.

AÜDCC-nin sədri, tibb elmləri doktoru, kardiocərrah Kamran Musayev bununla yanaşı, sosial şəbəkələr vasitəsilə geniş təbliğat kampaniyasının həyata keçiriləcəyini də bildirib: "Sosial şəbəkələr bu gün cəmiyyət həyatının ayrılmaz parçasına çevrilib. Bu məqsədlə bütün sosial şəbəkə istifadəçilərini aktiv olaraq təbliğat kampaniyasına qoşulmağa səsləyirəm. "Həyatına enerji qat!" sağlamlıq həftəsinə qoşulun, sağlam ürək selfisi çəkərək sosial şəbəkə hesablarınızda #worldheartday #dünyaürəkgünü #poweryourlife #həyatınaenerjiqat hashtag-larından istifadə edərək paylaşın və Dünya Ürək Gününə töhfənizi verin".

Dünya Ürək Federasiyasının təşəbbüsü ilə 2000-ci ildən etibarən hər il sentyabrın 29-u Dünya Ürək Günü kimi qeyd olunur. Dünya Ürək Federasiyası dünyanın 100-dən çox ölkəsində ürək cəmiyyətləri və ürək fondlarının birgə səyi sayəsində 200 üzv təşkilatın birləşmiş icması vasitəsilə bütün dünyada ürək xəstəliklərinə qarşı mübarizə aparır. Dünya Ürək Gününün keçirilməsində məqsəd əhalini ürək-damar xəstəliklərinin təhlükəliliyi barədə məlumatlandırmaq, bu xəstəliklərin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin uğurla aparılmasına nail olmaqdır. Dünya Ürək Federasiyası Dünya Ürək Gününü hər il fərqli şüarla qeyd edir. "Həyatına enerji qat!" Dünya Ürək Gününün builki şüarıdır.

# Tədris Cərrahiyyə Klinikasının yeni direktoru klinika heyəti ilə tanış olub

**Sentyabrın 2-də ATU-nun Tədris Cərrahiyyə Klinikasına yeni təyin olunan direktor, professor Surxay Hadıyev klinika heyəti ilə yaxından tanış olub.**



Tədris Cərrahiyyə Klinikasının baş həkimi, dosent Asiman Həsənov klinikaya direktor təyin olunması münasibətilə professor Surxay Hadıyevi təbrik edib, daha sonra isə klinikanın şöbə müdirləri və əməkdaşlarını təqdim edib.

Professor Surxay Hadıyev bildirib ki, klinikada işlər ağır olsa da, klinika heyəti ilə birlikdə bütün çətinliklərin öhdəsindən gələcək və klinikanın daha da inkişafı üçün çalışacaq. Direktor onu da qeyd edib ki, klinikanın hər bir şöbəsi ilə yaxından maraqlanacaq və edilən bütün təkliflər birlikdə müzakirə olunacaq.

Daha sonra baş həkim, dosent Asiman Həsənov görülən işlərdən danışaraq qeyd edib ki, ATU-nun Tədris Cərrahiyyə Klinikasında hər cür şərait, əməliyyat bloku və palatalar mövcuddur. O, bundan sonra da universitet rəhbərliyinin, Səhiyyə Nazirliyinin qayğısı sayəsində daha çox nailiyyətlərin əldə olunacağını söyləyib.

Toplantının yekununda iştirakçıların təklifləri dinlənilib, müəyyən qərarlar verilib.

# Klinikanın 6 aylıq hesabatı dinlənilib

**Sentyabrın 9-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında növbəti konfrans keçirildi.**



Konfransda klinikanın direktoru, professor Surxay Hadıyev, baş həkim, dosent Asiman Həsənov, eləcə də kafedra və şöbə müdirləri iştirak edib. Konfrans zamanı son 6 aya dair şöbələrdə gedən işlər, əməliyyatlar haqqında hesabatın müzakirəsi oldu. Ümumilikdə direktor kllinikanın işlərinin yaxşılaşdırılması üçün öz tövsiyələrini verdi. Sonda konfrans iştirakçıları tərəfindən də müəyyən təkliflər irəli sürüldü.

**Ulduz İBRAHİMOVA**

# Həkim və rezidentlərin nəzərinə...

**«AZƏRBAYCAN-TÜRKİYƏ ORTAQ HEPATOLOJİ KURSU» keçiriləcəkdir**

**1 oktyabr 2016-cı il tarixində, saat 09:30-da** ATU-nun Tədris Cərrahiyyə Klinikasının konfrans zalında (-1) **"AZƏRBAYCAN-TÜRKİYƏ ORTAQ HEPATOLOJİ KURSU"** keçiriləcəkdir.

Bütün hepatoloqlar dəvətlidirlər.



# “Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri” mövzusunda beynəlxalq konfrans

**Sentyabrın 8-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında “Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri” mövzusunda beynəlxalq konfrans işə başlayıb.**



Tədbir AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutub.

Konfransı açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli hazırda ölkədə olduqca aktual xarakter daşıyan multikulturalizm dəyərlərinin Azərbaycan modeli barədə danışıb. Prezident İlham Əliyevin 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan edilməsi haqqında imzaladığı Sərəncamın əhəmiyyətindən bəhs edən İ.Həbibbəyli dövlətimizin başçısının təşəbbüsü ilə multikulturalizmin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildiyini vurğulayıb: “Azərbaycan modeli üç prinsipə əsaslanır: tarixi milli dəyərlər, tolerantlıq və azərbaycançılıq. Burada azərbaycançılıq prinsipi xüsusi önəm daşıyır”.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev Azərbaycanda multikulturalizmin həyat tərzi olduğunu, ölkəmizdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin əsrlərə söykəndiyini qeyd edib.

Azərbaycan multikulturalizminin dünyanın müxtəlif ölkələrində təbliğ və tədris edildiyini diqqətə çatdıran komitə sədri ölkənin ali təhsil müəssisələrində bu fənnin tədrisinin əhəmiyyətini önə çəkib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da çıxış edərək bu gün dünyada multikulturalizmin alternativinin olmadığın deyib: “Tarixən tolerant və multikultural dəyərləri üstün tutan, əhalisinin 96 faizini müsəlmanlar təşkil edən Azərbaycanda bütün dinlərin nümayəndələri-müsəlman, xristian, yəhudilər əsrlərdir sülh və qardaşlıq şəraitində yaşayırlar”.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov, Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Cavadlı, Rusiya Dövlət Pedaqoji Universitetinin professoru Marianna Dvoreçkaya və başqaları mövzunun aktuallığını vurğulayaraq, multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməyin vacibliyini bildiriblər.

Konfransın bölmə iclaslarında “Müasir Azərbaycanda dövlət-din münasibətləri”, “Azərbaycan tatlarının dilinin etnoqrafik leksikasına dair Azərbaycan dilinin nitq mədəniyyəti problemləri”, “Azərbaycan Respublikasında milli azlıqların mədəni irsinin qorunması və inkişafı” və digər mövzularda məruzələr dinlənilib. Azərbaycan Tibb Universitetinin I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Nağdəli Zamanovun “Heydər Əliyevin nitqində multikultural dəyərlər” adlı məruzəsi də maraqla qarşılanıb.

Konfrans işini sentyabrın 9-da başa çatdırıb.

**A.KAMRANOĞLU**

*Svetlana Xanbutayeva-70*

# Müvəffəqiyyətlər arzulayırıq



**Xanbutayeva Svetlana Nəsir qızı 1946-cı il sentyabrın 17-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1963-cü ildə orta məktəbi bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitunun (indiki ATU) sanitariya-gigiyena fakültəsinə daxil olub və 1970-ci ildə təhsilini başa çatdırıb.**

S.N.Xanbutayeva əmək fəaliyyətinə 1971-ci ildə Q.Musabəyov adına Elmi-tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda kiçik elmi işçi kimi başlayıb.

1977-ci ildə N.Nərimanov adına ADTİ-nin epidemiologiya kafedrasında aspiranturaya daxil olub. 1982-ci ildə namizədlik dissertasiyası müdafiə edərək tibb elmləri namizədi adını alib, kafedraya assistent vəzifəsinə seçilib. Bu andan etibarən onun həyatı tibb institutu ilə bağlanıb və o, burada assistent vəzifəsindən dosent vəzifəsinə qədər yüksəlib.

Epidemiologiya kafedrasında 40 ilə yaxın əmək fəaliyyəti onu bacarıqlı müəllim, epidemioloq alim, yüksək erudisiyalı mütəxəssis kimi tanıdıb.

S.N.Xanbutayeva respublikamızda helmintologiya sahəsində tanınmış alimlərdən biridir.

S.N.Xanbutayeva həmişə öz elmi-pedaqoji fəaliyyətini təkmilləşdirir, müasir səviyyədə mühazirə və təcrübə dərsləri aparır.

Helmintologiyanın müxtəlif məsələlərinə dair orijinal və qiymətli tədqiqatlar aparan Svetlana Xanbabayevanın qələmindən 80 məqalə, 6 metodik tövsiyə, 1 monoqrafiya və 5 dərs vəsaiti çıxıb. Kafedra kollektivi və tələbələr arasıda böyük hörmətə malikdir. İnsanlardan bacarığını əsirgəməyən xoş rəftarlı bir həkimdir.

Epidemiologiya kafedrasının kollektivi Svetlana xanımı 70 illik yubileyi münasibəti ilə təbrik edir, ona can sağlığı işlərində müvəffəqiyyətlər arzulayır.

**Epidemiologiya kafedrasının kollektivi**

# DEKAN TƏLƏBƏ VƏ VALİDEYNLƏRLƏ GÖRÜŞDÜ

**Sentyabrın 14-də Azərbaycan Tibb Universitetinin (ATU) tibbi profilaktika fakültəsinin dekanı Aydın Məmmədovun fakültəyə bu il daxil olan I kurs tələbələri və onların valideynləri ilə görüşü olub.**



Görüş zamanı dekan valideynləri övladlarının bu il universitetə qəbul olması münasibəti ilə təbrik edərək tələbələrə uğurlar arzulayıb. Qeydiyyatdan 77 tələbənin keçdiyini və onlardan 35-nin 600 baldan çox topladığını bildirən Aydın müəllim, universitet və fakültə barədə görüş iştirakçılarına ətraflı məlumat verərək, təhsil sistemində aparılan islahatlara da toxunub. Bildirib ki, 1999-cu ildə 29 ölkənin təhsil nazirlərinin iştirakı ilə imzalanan Boloniya Bəyannaməsinə 2005-ci ildə ölkəmiz də qoşulub: “Hazırda 49-dan çox ölkə və beynəlxalq təşkilat təhsil sistemini bu bəyannamənin tələblərinə uyğun olaraq qurub. Dünyanın 180-dən çox universitetində bu sistem uğurla həyata keçirilir. Respublikamız «Boloniya» prosesinə qoşulandan sonra ilk dəfə bu sistem 2006-cı ildə mənim dekan olduğum fakültədə tibbi-biologiya ixtisası üzrə, 2008-ci ildə isə tibbi-profilaktika ixtisası üzrə tətbiq edildi. Bu sistem üzrə aparılan tədris prosesi zamanı dərsə davamiyyət, mənimsəmə göstəricilərində xeyli irəliləyişin olduğu müşahidə olundu və neqativ hallar aradan qaldırıldı.”- deyən Aydın müəllim yeni qəbul olmuş tələbələrin tələbə biletlərinin, imtahan kitabçalarının və dərs cədvəlinin hazır olduğunu da diqqətə çatdırdı. Fakültədə tibbi-profilaktika ixtisası üzrə mikrobiologiya, epidemiologiya, parazitologiya, infektologiya, gigiyenanın müxtəlif sahələri və səhiyyənin təşkili üzrə; tibbi-biologiya ixtisası üzrə isə bioloji kimya, bioloji fizika, tibbi genetika, mikrobiologiya, virusologiya və laborator xidmət üzrə həkim kadrların hazırlandığını bildirdi.



Çıxışının sonunda A.Məmmədov tələbələrə tədris olunan dərsləri və vərdişləri yaxşı mənimsəmələrini tövsiyə edərək, bir daha uğurlar arzuladı.

Biz də “Təbib” qəzeti olaraq valideynlərin və tələbələrin təəssüratlarını öyrənməyə çalışdıq.

**Rəşid Məmmədov (valideyn):**

- Bakıda fəaliyyət göstərən 249 saylı orta məktəbi bitirən qızım Nəzrin Məmmədova ATU-ya 615 balla qəbul olub. Sevincimin həddi-hüdudu yoxdur. Nəzrinin hazırlanmasında müəllimləri ilə yanaşı, mənim də əməyim az olmayıb. Bu uğura görə müəllimlərinə və qızıma təşəkkür edirəm.

**Təhminə Vahabova (valideyn):**

- Mən 580 balla universitetə qəbul olan Səbinə Vahabovanın anasıyam. Bakıda 180 saylı tam orta məktəbi bitirən Səbinə müəllimlərinin və bir ana kimi mənim etimadımı doğruldub. Qızımın qəbul xəbərini eşidəndə çox sevindim, ona söz verdiyim hədiyyələri aldım. Özümü hazırda xoşbəxt hiss edirəm. Ümidvaram ki, universitetdə də nümunəvi tələbələrdən olacaq.

Bərdə rayonunun Mirzə Cəfərli kəndində anadan olan Cabir Pənahlı 615 balla, Bakıda 288 saylı orta məktəbi bitirən Nicat Səlimzadə isə 597 balla universitetə qəbul olanlardır. Hər ikisi həkim peşəsini öz istəkləri əsasında seçdiklərini və peşənin incəliklərini öyrənmək üçün mümkün olan bütün vasitələrdən istifadə edəcəklərini və gələcəkdə insanların sağlamlığı keşiyində duracaqlarını bildirdilər.

Təki siz deyən olsun. Biz də öz növbəmizdə sizlərə nailiyyətlər arzulayırıq.

**Qabil ABDULLAYEV**

# Özü təmizlənən dəsmallar yaradılıb



**Yeni həll real olsa bundan sonra, dəsmalları yumağa ehtiyac olmayacaq. “JPLiving SilverBamboo” layihəsinin yeni inqilabi özü təmizlənən dəsmaldır. Bunun üçün “JPLiving SilverBamboo” layihəsi “Kickstarter” platformasında maliyyə toplayır.**

“JPLiving SilverBamboo” adlı dəsmal bambuk və gümüşün qarışığından yaradılıb. Dəsmal öz tərkibi sayəsində istifadədən sonra təzə qalır.

Sanitar normalarına uyğun olaraq, dəsmalın istifadəsindən sonra onu yumaq lazımdır, amma belə sanitar normalar digər tərəfdən xeyli miqdarda su işlədilməsinə səbəb olur. Bundan başqa, dəsmalı daha az yumaq az məhsul istehsalına imkan verir, çünki bu dəsmallar adi dəsmallarla müqayisədə uzun müddət istifadə ediləcək.

# GİGİYENA-PROFİLAKTİK TƏBABƏTİN ƏSASIDIR

**Müasir yanaşma mövqeyindən təbabətin məqsədi sağlamlığı qorumaq və möhkəmləndirmək, insanların ömrünü uzatmaq, xəstəliklərin qarşısını almaq, xəstələri müalicə etmək kimi təcrübi fəaliyyətdən ibarətdir. Buradan göründüyü kimi, müasir təbabətin iki qolu, iki istiqaməti müəyyən edilir: onlardan birincisi müalicə və ya klinik təbabətidir ki, onun əsas obyekti xəstə insan və xəstəlik, məqsədi isə pozulmuş fərdi sağlamlığı, xəstə orqanın və ümumilikdə orqanizmin fizioloji funksiyalarını, insanın həyat və əmək fəaliyyətini bərpa etməkdən ibarətdir.**

Müasir klinik təbabətin səviyyəsi çox yüksək olub, mürəkkəb müalicə üsulları (transplantologiya, kök hüceyrələrinin tətbiqi, gen mühəndisliyi, lazer tətbiqilə müalicə və s.) tətbiq etməklə, xəstə insanların fəal həyata qaytarılmasını təmin edir. Bununla yanaşı, klinik təbabət insanı xəstələnmədən və ya xəstəliklərə yoluxmadan sığortalaya bilmir, onun xəstələnməməsinə təminat vermir. Onun vəzifəsi yalnız pozulmuş sağlamlığı bərpa etməkdən ibarət olur ki, bu da bəzən çətin və hətta mümkünsüz olur.

Təbabətin ikinci istiqaməti – profilaktik təbabət və ya gigiyena öz mahiyyəti etibarı ilə ictimai təbabətdir. Bu istiqamətin əsas obyekti praktik sağlam insan, onu əhatə edən təbii və sosial mühitdir. Çox təəssüflə qeyd etmək lazımdır ki, məhz profilaktik təbabətin ictimai xarakteri cəmiyyətdə, onun ayrı-ayrı səlahiyyətli icra strukturlarında ona laqeyd münasibətin formalaşmasının əsasını təşkil edir. Əsl həqiqətdə isə profilaktik təbabətin – onun nəzəri əsaslarını işləyib hazırlayan gigiyenanın nailiyyətləri əsasında bəşəriyyət bir sıra qorxulu xəstəliklərin epidemiyalarından xilas olmuş, bir çox təhlükəli yoluxucu xəstəlik ocaqları qısa müddət ərzində lokallaşdırılmışdır.

Hələ XIX əsrdə Rusiya klinik təbabətinin görkəmli nümayəndəsi olan məşhur terapevt S.Botkin demişdir: «Pozulmuş sağlamlığı bərpa etmək xəstəliyin qarşısını almaqdan daha çətindir». Bu prinsipə əsaslanaraq, hər bir müalicə həkimi, ixtisasından asılı olmayaraq xəstəliyin inkişafına səbəb olan şəraiti və amili araşdırmalı, sağlamlıqla ona təsir edən amil arasında səbəb-nəticə əlaqələrini aşkara çıxarmağı bacarmalıdır.

Bu cür yanaşma hazırki ekoloji durumda daha mühüm aktuallıq kəsb edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən insanın sağlamlıq vəziyyətinin formalaşmasında ətraf mühit amilləri (18-20%) və həyat tərzi (49-53%) daha böyük çəkiyə malikdir. Ona görə də hər bir müalicə edən həkim ixtisasından asılı olmayaraq bu şərait və amillərlə insan orqanizmi arasında qarşılıqlı təsir qanunauyğunluqlarını öyrənmək əsasında xəstəliklərin diaqnostikası və müalicəsini, xəstəlikdən sonrakı davranış qaydalarını təşkil edə və effektli rejim təyin edə bilər.

Müasir çoxamilli ətraf mühit (təbii, antropogen, sosial) şəraitində, insan orqanizmində baş verən patologiyaların böyük əksəriyyəti ekzogen amillərin əlverişsiz təsiri altında yaranır və inkişaf edir. Bu xəstəliklər sırasında ekoloji səbəb əlaqəli xəstəliklər, habelə «sivilizasiya xəstəlikləri» kimi xüsusi nozoloji qruplar getdikcə daha böyük yer tutur. 20-dən artıq xəstəlik məlumdur ki, onların inkişafında istisnasız olaraq ekoloji amil etioloji rol oynayır.

Göstərilənlərə rəğmən, insanı əhatə edən ətraf mühit (yaşayış və istehsalat mühiti, iş şəraiti, təlim-tərbiyə mühiti) amillərinin insan orqanizminə təsir qanunauyğunluqlarını yalnız gigiyenik biliklərə yiyələnməklə, gigiyenanın qanunlarının mahiyyətini dərk etməklə mənimsəmək və sağlamlığın pozulmalarını əvvəlcədən proqnozlaşdırmaq, qabaqlayıcı tədbirlərlə xəstəliklərin qarşısını almaq, xəstəlik baş verdikdə isə müxtəlif müalicə-reabilitasiya tədbirlərilə birlikdə səmərəli gigiyenik rejim əsasında xəstənin sağalmasını təmin etmək mümkündür.

Bütün yuxarıda göstərilənlər ali tibb təhsilinin strukturunda müalicə və profilaktika istiqamətlərinin vahid bir sistem kimi tədris olunmasını labüd edir.

Əgər tibbi yardım üçün həkimə müraciət edən şəxsin şikayətlərinə, xarici görünüşünə görə xəstəlik aşkar olunursa, onun yaşayış, əmək, təlim-tərbiyə şəraitini, həyat tərzini, hansı vərdişlərə sahib olduğunu bilmədən xəstəliyin diaqnozunu dəqiqləşdirmək çox çətin, müalicə-bərpa taktikasını düzgün təyin etmək isə olduqca mürəkkəb olur.

Bunları nəzərə alaraq müalicə işi ixtisası üzrə təhsil alan tələbələrin gələcək peşə xarakteristikasında profilaktik təbabət elementlərinə – bilik və bacarıqların mənimsənilməsinə geniş yer verilməlidir.

Çox uzaq olmayan keçmişdə ümumi gigiyena fənni müalicə-profilaktika, pediatriya, stomatologiya və tibbi-profilaktika fakültələrində klinik fənlərin tədrisinə başlandığı dövrdə – III-IV kurslarda tədris olunurdu. Eyni zamanda XX əsrin 80-ci illərinin sonuna qədər müalicə-profilaktika, pediatriya və stomatologiya fakültələrində ümumi gigiyena, əsas ixtisas fənni kimi dövlət buraxılış imtahanlarının siyahısına daxil idi. Bu isə tələbələrdə, məzunlarda və həkimlərdə profilaktik təfəkkürün formalaşmasında və möhkəmlənməsində müsbət rol oynayır, gigiyena elminin öyrənilməsi və mənimsənilməsi üçün stimul yaradırdı.



Müasir şəraitdə yeni diaqnostika və müalicə üsullarının, tibbi texnikanın inkişafının sürətləndiyi bir dövrdə, səhiyyə sisteminin getdikcə təkmilləşməsi fonunda əhali sağlamlığının qorunması və möhkəmləndirilməsinə dair tədbirlər kompleksində nəzəri əsasları gigiyena tərəfindən hazırlanan profilaktika əsas yer tutur. Əgər Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu beynəlxalq qurum, əhali sağlamlığının qorunmasında profilaktikanın prioritetlərini təsdiq edir və bu sahədə cəmiyyətin səylərinin gücləndirilməsini təbliğ edirsə, hər bir aspekti (elmi, pedaqoji, metodik və s.) formalaşmış və respublikada ali tibbi təhsilin başlanğıcından tədris olunan gigiyenaya təəssüf ki, tez-tez müşahidə olunan etinasızlıq başa düşülən deyil. Son vaxtlarda istər bir sıra səlahiyyətli icra strukturları, elm və təhsil təşkilatçıları və təbii ki, tələbələr tərəfindən ümumilikdə profilaktik təbabətə, o cümlədən gigiyena fənninin tədrisinə və öyrənilməsinə bir qədər laqeyd münasibət belə bir anlaşılmazlığın formalaşmasına zəmin yaratmışdır.

Nəzərə almaq və yaddan çıxarmamaq lazımdır ki, məhz gigiyenik biliklərə əsaslanan effektli profilaktika tədbirləri sayəsində son illər bütün dünyada, o cümlədən Azərbaycanla həmsərhəd ölkələrdə müşahidə olunan təhlükəli xəstəlik epidemiyaları («Quş qripi», «Donuz qripi» və b.) ölkəmizdən yan keçmişdir. Bununla bərabər, qeyd etmək lazımdır ki, təbabətdə profilaktika tədbirləri müvəqqəti kampaniya xarakteri daşımamalıdır. Bu tədbirlər planlı, məqsədyönlü və fundamental nəzəri-elmi əsaslar üzərində qurulmaqla sistematik olmalıdır. Bunun da yeganə yolu fundamental tibb elmləri sırasında əsas profilaktik fənn kimi gigiyena elminə münasibət digər təbabət elmlərinə olan münasibətlərdən fərqlənməməli, onun tədrisi bütün tibb ixtisasları üzrə dayanıqlı, planauyğun əsaslar üzərində təşkil edilməlidir.

**“Sağlam insanların qayğısına qalmaq lazımdır ki, onlar xəstələnməsinlər”**

**(Hipokrat)**



Azərbaycan Tibb Universitetinin müalicə işi, stomatologiya, hərbi tibb ixtisasları üzrə tələbələrinin gigiyena fənnindən biliklərin və təcrübi bacarıqların mənimsənilmə səviyyəsinin qiymətləndirilməsi yalnız II kursun semestr imtahanlarında deyil, həm də dövlət buraxılış imtahanlarının proqramına daxil edilməsi vacib hesab edilir. Gigiyena fənninin ali tibb təhsilinin rezidentura pilləsinin istər qəbul imtahanlarının, istərsə də rotasiya fənlərinin proqramına daxil edilməsinə də böyük ehtiyac vardır. Baxmayaraq ki, müalicə edən həkimin peşə fəaliyyətinin tərkib hissələrindən biri profilaktikadır, bu ixtisaslara yiyələnmək istəyən tələbələr II kursdan sonra profilaktik təbabət haqqında heç bir fundamental bilik və informasiya almır və bu istiqamətdə hər hansı bir yenilikdən xəbərdar olmurlar. Ona görə də müalicə işi ixtisasları üzrə rezidenturaya qəbul və bu təhsil müddətində rotasiya fənləri sırasına gigiyenanın daxil edilməsi göstərilən boşluğu doldura bilər.

**Aydın MƏMMƏDOV,**
*Tibbi profilaktika fakültəsinin dekanı, dosent*
**Mirzə KAZIMOV,**
*Ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor*
**Əsədulla QURBANOV**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

## Tibb xəbərləri

# Qanın analizi qəfil ölüm təhlükəsindən xəbər verə bilər

**Ürəyin qəfil dayanması ilə baş verən ölüm halları səhhətində ciddi problemləri olmayan orta yaşlı insanlarda daha çox müşahidə edilir. Pasiyentlər heç bir simptom hiss etmir, ya da bu simptomlara əhəmiyyət vermirlər.**



Rotterdamlı Erazm Universiteti yanında Tibb Mərkəzindən (Hollandiya) bir qrup tədqiqatçı ürəyin qəfil dayanması səbəblərini araşdırmağa çalışıb. Bu məqsədlə onlar 10 min orta yaşlı adamı müayinə və müşahidə ediblər.

Söhbət tireoid hormonunun qatılığından gedir. Qanında bu hormonun miqdarının artdığı insanlar qəfil ürək ölümü təhlükəsinin yüksəldiyi qrupa daxil edilib. Tədqiqat qrupunun rəhbəri Layal Çaker qeyd edir ki, tireoid hormonunun cüzi miqdarda çoxaldığı adamlarda da müvafiq təhlükə artıb. Yəni, bu hormon normadan bir qədər çox olubsa, müvafiq ölüm təhlükəsi hormonun normadan az olması halı ilə müqayisədə 2,5 dəfə artıb.

Əvvəllər qarşılıqlı əlaqəni aşkar etmək mümkün olmayıb, Lakin indi alimlər tireoid hormonunun qatılığı və ölüm təhlükəsinin yaranma ehtimalı arasında əlaqəni araşdırmağı planlaşdırırlar. Onlar güman edirlər ki, böyük miqdarda hormon ürəyin fəaliyyətini sürətləndirməklə ona təsir edir. Bu cür nəticələr əvvəllər əldə edilsə də, qatılığın normanı keçdiyi hallar üçün nəzərdə tutulub. Bu tədqiqatda isə nisbətən az miqdarda hormondan söhbət gedir – bəlkə də bu onu göstərir ki, tireoid hormonu daha zərərli və həyat üçün daha təhlükəlidir.

# Son 25 ildə vəhşi təbiətin 10 faizi məhv edilib

**Son 25 ildə vəhşi təbiət guşələrinin təxminən 10 faizi insanlar bəşəriyyət tərəfindən məhv edilib və ərazinin cəmi 23 faizinə insan əli toxunmayıb.**



Bu barədə məlumat ekoloqların "Current Biology" jurnalında dərc edilmiş məqaləsində yer alıb. Kvinslend Universitetindən (Avstraliya) Ceyms Uotson yazıb: "Əgər biz yaxın vaxtlarda bir iş görməsək, vəhşi təbiət tamamilə yoxa çıxacaq. Biz indi tədbir görməliyik. Məqsəd təbiəti gələcək nəsillər üçün yaşatmaqdır". C.Uotson və onun həmkarları ötən əsrin 90-cı illərindən bəri vəhşi təbiətdə insan əlinin toxunmadığı yerlərin xəritəsini hazırlamağı qərara alıblar.

Qrupun nəzərində "vəhşi təbiət zonalarına" bioloji və ekoloji müxtəlifliyini qoruyub saxlayan təbii landşaft və ekosistemlərin olduğu böyük ərazilər daxildir. Bu yerlərdə insanların olmaması vacib deyil, əsas məsələ təbiətə müdaxilə hallarının minimum səviyyədə olmasıdır. Vəhşi Heyvanları Mühafizə Cəmiyyətinin (WCS) hesablamasına görə, 1990-cı illərin əvvəlində Yerin quru səthinin 33 faizi "vəhşi təbiət zonalarına" aid edilib. C.Uotson və onun həmkarlarının yeni məlumatı göstərir ki, son 20-25 ildə bu ərazi təxminən 9,6 faiz azalıb. Bu itkilər iki qitədə - Cənubi Amerika və Afrika meşələrin qırılması, kənd təsərrüfatı ərazilərinin genişləndirilməsi və əhalinin sayının sürətlə artması nəticəsində baş verib. Şimali Asiya, Şimali Amerika və Avstraliya ərazisində vəhşi təbiət ərazilərinə daha az toxunulub.

# Hər altı aydan bir stomatoloqun yanına getməyə ehtiyac yoxdur

**Profilaktik baxış üçün hər altı aydan bir diş həkiminin yanına getmək lazım deyil.**



Bu, aparıcı britaniyalı stomatoloq Sara Harlinin rəyidir. Baş stomatoloq hesab edir ki, pasiyentlər diş həkimlərinin tövsiyələrinə korkoranə yanaşmamalı və müntəzəm olaraq mütəxəssislərin qəbuluna getməməlidirlər.

Birləşmiş Krallıqda dişlərin profilaktik müayinəsi üçün hər hansı ciddi vaxt cədvəli yoxdur. Diş problemləri ümumiyyətlə olmayan şəxslər üçün interval iki il təşkil edir. "Lakin bir çox həkimlər bu tövsiyələrə məhəl qoymur və israr edirlər ki, pasiyentlər qəbula daha tez-tez gəlsinlər" – deyə ölkənin baş stomatoloqu bildirib.

# Əntiqə Cəlil qızı Əlizadə

**Azərbaycan dili kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Əntiqə Cəlil qızı Əlizadə dünyasını dəyişib.**



Əntiqə xanın 1952-ci il fevralın 3-də qədim Gəncədə ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi Gəncədə bitirən gənc Əntiqə Bakıya gəlib, sənədlərini o zamankı S.M.Kirov adına ADU-nun (indiki BDU) rus dili və ədəbiyyatı fakültəsinə verib və yüksək balla ali məktəbə qəbul olunub. Dərslərə ciddi hazırlaşması, özünə qarşı tələbkarlığı, imtahan sessiyasındakı uğurları tələbə qıza təkcə öz qrupunda deyil, bütün fakültədə hörmət qazandırmışdır. Elə bunun nəticəsi idi ki, Əntiqə Əlizadə hələ tələbə ikən - IV kursda oxuyarkən I Ümumittifaq tələbə elmi konfransında Respublikamızı təmsil etmiş və "Rus dili və ədəbiyyatını mükəmməl bildiyinə görə" adlı xüsusi prizə layiq görülmüşdü. Ali məktəbi bitirdikdən sonra Kənd Təsərrüfatı Akademiyasında rus dilini tədris edən (1975-1977) gənc müəllimin Elmi tədqiqata olan sonsuz marağı onu Rus dili və ədəbiyyatı İnstitutunun (indiki Slavyan Universiteti) aspiranturasına aparmışdır (1978-1982). O, 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda "C.N.Tolstoy Azərbaycan ədəbiyyatşünaslığında" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Əntiqə xanımın ədəbiyyatşünaslığa aid tədqiqatları rus-Azərbaycan ədəbi əlaqələri mövzusuna xeyli yeniliklər gətirmişdir. 40-dan çox məqalə, monoqrafiya, dərs vəsaitinin müəllifi olan Əntiqə xanım 1997-ci ildən Universitetimizdə (Rus dili kafedrasında) dosent kimi çalışmışdır. Universitetdə və işlədiyi kollektivdə dərin nüfuz sahibi olan Əntiqə xanımı tələbələri çox sevirdi. O, 2014-cü ildən Azərbaycan dili kafedrasında dosent kimi fəaliyyətini davam etdirirdi. Öz işgüzarlığı, müəllimlik peşəsinə olan sevgisi burada da onu hamının əzizinə çevirmişdi. Ana dilimizi yüksək səviyyədə bilən (onun tədqiqatları, əsasən, rus-Azərbaycan dillərinin müqayisəsinə aid idi)

Əntiqə xanım necə həvəs və məhəbbətlə "Azərbaycan dili və nitq mədəniyyəti"nin sirlərini tələbələrinə öyrədir, ana dilimizi sevdirmək üçün yeni metodlardan faydalanırdı. Az müddətdə bir neçə dəfə onun açıq dərsində iştirak etmişdik və bu dərslər öz elmi və metodiki səviyyəsinə görə bizi tam təmin etmişdi.

Əntiqə xanım bəstəkarlıq fəaliyyəti ilə də məşğul idi. O, Azərbaycan şairlərinin sözlərinə yazılmış 50-dən artıq gözəl mahnı müəllifidir. Onun ürəyə xoş duyğular gətirən "Gəncənin qızları" , "Doğma Azrbaycanım", "Gəncəm", "Adın yaraşır", "Bayatılar", "Mənim Nigar balam" kimi mahnıları dinləyicilərdə zərif hisslər doğurur, insanı sevməyə, vətənin gözəlliklərindən zövq almağa çağırır. Həm də maraqlıdır ki bu mahnıları Respublikanın görkəmli müğənniləri, xalq artistləri ifa etmişlər: Brilyant Dadaşova, Gülyaz Məmmədova, əməkdar artistlər Cavan Zeynallı, Lalə Məmmədova, Abbas Bağırov və başqaları.

Əntiqə xanım bir insan kimi o qədər həssas, o qədər səmimi idi ki, onu bir dəfə görmək kifayət idi ki, bu gözəl xanımı xoş duyğularla xatırlayasan. Ömrünün çox məhsuldar və müdrik çağını yaşayan Əntiqə xanım qəfil bu dünyaya göz yumdu. Fədakar ana, sevimli nənə, qayğıkeş və həssas müəllim ömrü yaşamış Əntiqə xanım əzizlərinin və onu tanıyanların, xüsusilə tələbələrinin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

*ATU-nun Tibbi profilaktika fakültəsi, Azərbaycan dili kafedrasının kollektivi*

# Yoqa çoxlu sayda xəstəliklərdən müdafiədir

**Yoqa ürək, qan-damar, xərçəng, diabet və digər yoluxucu olmayan xəstəliklərə tutulma riskini azaldır.**



Hindistanın səhiyyə naziri Caqat Prakaş Nadd buna əmindir. Nazirin sözlərinə görə, qeyri-yoluxucu xəstəliklərin əksəriyyətinin səbəbi yanlış həyat tərzidir. Yoqa isə onu yaxşı yönə dəyişməyə kömək edir.

C.Naddanın fikrincə, yoqa bədən, ruh və zəkanı bir-birinə bağlayır, sağlamlığa düzgün yanaşmağı öyrədir. Nazir vurğulayır ki, yoqa sadəcə məşğələ toplusu deyil, eyni zamanda, insanı dəyişən fəlsəfədir.

Yeri gəlmişkən, Kaliforniya Universitetinin (ABŞ) tədqiqatçıları bu yaxınlarda müəyyən ediblər ki, yoqa və meditasiya ilə məşğul olmaq beyin üçün də faydalıdır. Onlar hafizəni yaxşılaşdırır və insanı kəmağıllıqdan qoruyur. Araşdırma göstərib ki, yoqa və meditasiya ənənəvi yaddaş məşqlərindən daha səmərəlidir.

# Sosial şəbəkələrdə ünsiyyət emosional vəziyyəti sabitləşdirir



**◆ İnsanların sosial şəbəkələrdə ünsiyyəti onların emosional vəziyyətini sabitləşdirir.**

ABŞ-ın Karneqi Mellon Universitetinin tədqiqatçıları insan psixikasını öyrənərkən bu qənaətə gəliblər. Alimlər müxtəlif ölkələrdə yaşayan təxminən iki min könüllünü müşahidə ediblər. Eksperiment zamanı insanlar "Facebook" sosial şəbəkəsindən fəal istifadə ediblər. Nəticədə məlum olub ki, sosial şəbəkələrdə fəallıq tənhalıq hissini aradan qaldırır və insanların müəyyən qruplarda iştirakına şərait yaradır. Sosial şəbəkələrdə ünsiyyət onlarda müsbət emosiyalar yaradır və real həyatda baş verən hadisələrdən xəbərdar edir.

# İlanabənzər göydələn



**◆ Rus milyonçusu, eyni zamanda memarı Vasili Klyukin ilan formasına malik göydələn binasının müəllifidir.**

Memar Şərqdə ilanın müdriklik rəmzi hesab edildiyi üçün layihənin Asiya ölkələrindən birində həyata keçəcəyinə ümidvardır.

Layihəyə əsasən, göydələndə ticarət və ofis yerləri, həmçinin yaşayış apartamentləri, ən hündür nöqtəsində isə "gecə klub"u yerləşəcək.

Müxtəlif işıqlandırma sistemi vasitəsilə gün ərzində göydələnin simasını dəyişmək mümkün olacaq.

## Şirkətlərdə kadrlar şöbəsini əvəz edən kompyuter proqramı hazırlanıb



**Yaponiya şirkətləri praktikada bu və ya digər proseslərin avtomatlaşdırılmasını nəzərdə tutan süni intellektin hazırlanmasına böyük diqqət yetirirlər.**

AZƏRTAC "TASS" informasiya agentliyinə istinadən xəbər verir ki, "NEC" şirkətinin son texnologiyalarından biri məqsədi gələcəkdə müəssisələrdə kadrlar şöbəsini tam əvəzləyəcək əməkdaş seçimi sistemidir. Proqramın tətbiqi namizədlə ilkin müsahibənin insanla deyil, kompyuterlə aparılmasını nəzərdə tutur. Proqram təminatı vasitəsilə təqdim edilən CV, eləcə də namizədin keçdiyi seçmə testlərin sınaqları avtomatik təhlil edilir. Məlumatlar əsasında kompyuter kadrlar şöbəsinin əməkdaşlarına işə qəbul ediləcək şəxslə bağlı tövsiyələr verir.

Mütəxəssislərin fikrincə, proqramın tətbiqi mütəxəssis kadrların saxlanılması üçün xərcləri xeyli azaltmağa, eləcə də ilkin seçim mərhələsində insan amilini aradan qaldırmağa imkan verəcək.

"Hitachi" şirkəti də süni intellekt üzərində işi davam etdirir. Şirkətin mühəndisləri işçiyə iş vaxtının təşkili ilə bağlı tövsiyələr verən fərdi cihaz hazırlayıblar. Cihaz əməkdaşın hansı hərəkətlər etməsini, bu və ya digər yerdə nə qədər vaxt keçirməsini, az və ya çox istirahət etməsini, həmkarlarla sıx əlaqə saxlayıbsaxlamamasını qeydə alır.

# Niderland nə üçün gələcəyin ölkəsi adlandırılır?

**◆ Niderland sözün bütün mənalarında ən inkişaf etmiş dövlətlərdən biridir. Ölkə hökuməti nəinki insan həyatını yaxşılaşdıran, həmçinin ətraf mühiti qoruyan layihələri maliyyələşdirir.**

AZƏRTAC xarici KİV-lərə istinadla Niderlandın nə üçün gələcəyin ölkəsi adlandırıldığını diqqətə çatdırır.

**Hər 50 metrdən bir elektromobillər üçün enerjitoplama stansiyaları quraşdırılıb**

Niderlandın ən güclü cəhətlərindən biri dayanıqlı mobillikdir. Ölkə hökumətinin ənənəvi avtomobil yanacağından tam imtina etmək cəhdləri sayəsində demək olar ki, hər yerdə elektrik enerjitoplama stansiyaları quraşdırılıb. Bu stansiyaların quraşdırılması yeni nəsil avtomobillərdən – elektromobillərdən istifadə edən şəhərlilər üçün mühüm addımdır.



**Niderland sahibsiz it və pişiklərinin olmadığı yeganə ölkədir**

Bu yaxınlarda Niderlandda sahibsiz pişik və itlərin qalmadığı rəsmən təsdiqlənib. Ölkə hökuməti buna heyvanlara qətiyyən zərər vurmadan nail olub. Heyvanlara xüsusi hüquq verilib: onlarla pis davranan və ya onları küçəyə atan insanlar sərt şəkildə cəzalandırılır.

**İlk günəş batareyalı velosiped və avtomobil yolları**

"SolaRoad" adlı layihə hökumətin, özəl sənayenin və universitetlərin müştərək fəaliyyəti nəticəsində reallaşıb. Yolun ilk hissəsi 2015-ci ildə istifadəyə verilib. Onun uzunluğu təxminən 100 metr təşkil etsə də, bu, artıq gələcəyin yollarının tikintisində yeni eranın əsasını qoyub. Günəş şüaları sayəsində yolda istehsal olunan enerji küçələrin işıqlandırılmasında, müvafiq nəqliyyat vasitələrinin elektriklə təmin edilməsində istifadə olunacaq.





**Niderlandda heç kimin avtomobildən istifadə etmədiyi şəhər var**

Niderlandın Hauten şəhərciyi dünyanın ən təhlükəsiz məkanı sayılır. 1980-ci ilin əvvəllərində şəhərin 4 minlik əhalisi velosipeddən istifadə olunmasını təşviq edən strateji qərar qəbul edib. Bu, şəhər əhalisini hər xırda səbəbə görə avtomobil sükanı arxasında əyləşmək vərdişindən uzaqlaşdırıb. Beləliklə, nəzərə çarpmadan şəhərciyin bütün əhalisində velosipedlə hərəkətetmə vərdişi yaranıb.

**Hökumət ənənəvi avtomobillərin istifadəsinə tədricən qadağa qoyur**

Cəmi 9 ildən sonra, 2025-ci ilə qədər Niderland hökuməti ölkədə dizel və benzin yanacağı ilə işləyən avtomobilləri qadağan etməyi planlaşdırır. Bundan başqa, alternativ yanacaq mənbələri ilə işləyən fərdi nəqliyyat vasitələri vergidən azad edilib. Nəticədə belə avtomobillərin qiyməti 15 min avro ucuzlaşıb.

**Məhbuslar olmadığı üçün həbsxanalar bağlanır**

Niderlandda cinayətkarlığın səviyyəsinin aşağı salınması üçün əsaslı işlər görülür. 2009-cu ildən bəri məhbus çatışmazlığı səbəbindən ölkədə 19 həbsxana bağlanıb. Son məlumata əsasən, ölkədə yaşayan hər 100 min nəfər əhaliyə cəmi 163 cinayətkar düşür ki, bu da Braziliyanın göstəricisindən iki dəfə aşağıdır.

**Vəhşi heyvanlar üçün xüsusi körpülər quraşdırılır**

Niderland hökumətinin həll etməyə çalışdığı ümdə məsələlərdən biri də vəhşi heyvanların qorunmasıdır. Onların meşələri ayıran avtomobil yollarını təhlükəsiz şəkildə keçməsi üçün ölkədə bir neçə xüsusi körpü tikilib.

# Virusa yoluxan smartfonların sayı 96 faiz artıb




**◆ "Nokia" şirkəti smartfon və başqa cihazların virusa yoluxması barədə məlumatları özündə əks etdirən "Threat Intelligence Report" adlı hesabatını təqdim edib. Hesabata əsasən, 2016-cı ilin ilk yarımilliyində virusa yoluxan mobil qurğuların sayı 96 faiz artıb.**

AZƏRTAC "psm7.com" saytına istinadən xəbər verir ki, 2016-cı ilin aprelində haker proqramlarından istifadə artıb. Bu ayda 1.06 faiz smartfon zərərli proqram təminatı tərəfindən virusa yoluxdurulub. Əksər hallarda mobil qurğular özündə troyan saxlayan SMS mesajlar, pul qoparan proqramlar, zəhlətökən reklam və fərdi məlumatların oğurlanması üçün qanunsuz həllərin hücumuna məruz qalıb.

Finlandiya şirkətinin hesabatına əsasən, 2015-ci ilin ikinci yarımilliyi ilə müqayisədə mobil şəbəkədə virusa yoluxmuş cihazların sayı 20 faiz, stasionarda isə 11 faiz yüksəlib. Əksər hallarda "Windows" əməliyyat sistemi ilə işləyən fərdi kompyuter və noutbuklar, həmçinin mobil qurğular virusa yoluxur.

# Səyahətçilər üçün modul ev



**◆ Stokholmun "MAP" memarlıq studiyası meşə və dağları gəzdikdən sonra yorulmuş səyahətçilər üçün evcik layihəsini təqdim edib.**

AZƏRTAC "novate.ru" saytına istinadla bildirir ki, "DICE" adlanan bu evdə yolundan azmış və səfər zamanı heydən düşmüş turistlər bir gecəlik qala bilərlər.

Evcik istənilən yer üçün (düzənlik və ya çətin keçilən dağ) adaptasiya oluna bilər. Burada yalnız pəncərədən düşən təbii işıqdan istifadə ediləcək.

## Allah rəhmət eləsin!

İctimai fənlər kafedrasının və "Təbib" qəzetinin əməkdaşları kafedranın dosenti Elbrus Sadıqova anası

**Həlimə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji fiziologiya kafedrasının əməkdaşları kafedranın assistenti Nəsibə xanım Cəfərovaya atası

**Əsgər Surxay oğlu**

**Cəfərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I daxili xəstəliklər və reanimatologiya kafedrasının və "Təbib" qəzetinin əməkdaşları assistent Cəfər Əhmədova anası

**Sənubər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Allahverdiyev Taleh Söhrab oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bağırova Saidə Eldar qızına 2001-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 72a qrup tələbəsi Mikayıllı Çimnaz Eldəniz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@amu.edu.az
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 325